# İnamsızlıq

Şer Azərbaycan İnternəşnl jurnalının Yaz, 2004-cü il buraxılışından götürülmüşdür.

Daha gözəl məkan olardı,
Fikirləşirəm bu dünya
Əgər insanlar daha çox şer,
Mahnı,
Sənət bilsəydilər.

Özümü aldadırammı?
Mənəviyyatın korlaşdığı,
Durğunluqda boğulduğu
Bu dəhşətli dövran
Bitəcəkmi bir zaman
Əgər biz ideallıqlar və imkanlar səltətinin
Açarını itirsək?

Şeytanı görürəm dörd tərəfimdə,
Yalan, haqsızlıq
Ədalətsizlik. Ölüm.

Mənə de ki, hər şey yaxşılığa doğru gedir,
Yalan də mənə,
Aldat məni ümidlərlə.
İynə ucu qədər işıq ver mənə,
Çox inanmaq istəyirəm
Şübhə və inamsızlıqla özünü məhv edən bu dünyaya.

(Yay 2003)

---

İngilis dilindən tərcümə etdi: Aynurə Hüseynova
Veb üçün hazırladı və vebə qoydu: Ülviyyə Məmmədova
AZERİ.orga qoyuldu: iyun, 2004